UOT 33.378

Cavidan Cavid qızı MƏMMƏDZADƏ
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, magistr
e-poçt: cavidan.mammedzade@mail.ru

Qəzənfər Salman oğlu SÜLEYMANOV
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
“Menecment” kafedrasının müdiri, i.e.d., professor
e-poçt: suleymanov.q.s@gmail.com
https://doi.org/10.30546/4.71.730.02.2026.1164

İQTİSADİ TRANSFORMASİYANIN STRATEJİ İDARƏETMƏ SİSTEMLƏRİNƏ TƏSİRİNİN TƏDQİQİ

Xülasə

Tədqiqatın əsas məqsədi - İqtisadi transformasiya proseslərinin, biliklərə əsaslanan və rəqəmsallaşma ilə idarə olunan postindustrial iqtisadiyyata doğru istiqamətlənərək, rəqabətədavamlı iqtisadi inkişaf şəraitində idarəetmə mexanizmlərinin işlənməsi və təşkilinin səmərəliliyini təmin etməklə onun maliyyə təminatının səmərəli təşkili və idarə edilməsi perspektivləri və bir-biri ilə əlaqəsini təhlil etməkdən ibarətdir.

Tədqiqatın metodologiyası - Tədqiqat işində müxtəlif yanaşmalardan, məntiqi olaraq ümumi tədqiqat metodlarından və digər üsullardan istifadə edilmişdir. Şumpeterin “yaradıcı dağıntı” və Lin & Monganın dövlətin sahibkarlıq rolu nəzəriyyələrinə əsaslanan təhlil göstərir ki, idarəetmə sistemi çevikliyə (strategic agility) və məlumat əsaslı qərar qəbuluna keçid etməlidir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - İqtisadi transformasiya şəraitində maliyyə resurslarının əhəmiyyətinin, müqayisəli analizlərdən çıxarışlarla, sənaye sahələrinin inkişafında maliyyə resurslarının əhəmiyyətinin və onun təminatının səmərəli istifadəsinin perspektivləri və bir-birinə təsirini nəzərə alaraq, mövcud maliyyə təminatından səmərəli istifadənin yetərliliyinin, maliyyə resurslarının idarə edilməsi mexanizminin və müəssisələrdə həyata keçirilməsinin yüksəldilməsidir.

Tədqiqatın nəticəsi - Sənaye sahələrinin idarə edilməsinə maliyyə resurslarının parametrik modelinin tətbiqi təcrübəsinin əsasında onun parametrik modelinin sənaye sahələrinin təşkili xüsusiyyətlərinin və beynəlxalq təcrübə əsasında maliyyə resurslarından istifadənin təşkilinin araşdırılmasıdır. Nəticə olaraq, strateji idarəetmə passiv tənzimləyicidən çevik, məlumatəsaslı və innovasiyayönümlü milli rəqabət alətinə çevrilməlidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Ölkəmizdə sənaye sahələrinin maliyyə resurslarından səmərəli istifadəsinin və sənaye sahələrinin yeni mənbələrinin formalaşdırılmasının iqtisadi mexanizminin işlənib hazırlanmasıdır. Əsas tövsiyələrə Strateji İnvestisiya Fondlarının yaradılması, Rəqəmsal Transformasiya Vahidləri vasitəsilə texnoloji idarəetmənin təmin edilməsi və “sandbox” mexanizmlərinin tətbiqi daxildir.

Açar sözlər: iqtisadi transformasiya, strateji idarəetmə, strateji çeviklik, rəqəmsallaşma, innovasiya siyasəti, məlumatəsaslı idarəetmə, tədqiqat və inkişaf (t&i), İsrail modeli, Estoniya modeli.

Giriş

Müasir dünya iqtisadiyyatı sürətli və köklü dəyişikliklər mərhələsindədir ki, bu proses iqtisadi transformasiya anlayışı ilə səciyyələndirilir. Sözügedən transformasiya yalnız iqtisadi göstəricilərin kəmiyyət artımı ilə məhdudlaşmır, eyni zamanda iqtisadi sistemin strukturunun kənd təsərrüfatına əsaslanan mərhələdən sənaye, daha sonra isə bilik və innovasiyaya söykənən postindustrial mərhələyə doğru keyfiyyətcə yenidən formalaşmasını ifadə edir. Bu dəyişikliklər istehsal amillərinin rolunda, dəyər yaradılması mexanizmlərində və iqtisadi münasibətlərin mahiyyətində

fundamental yenilənmələrə səbəb olur.

İqtisadi transformasiyanın əsas hərəkətverici qüvvələri sırasında texnoloji tərəqqi xüsusi yer tutur. Xüsusilə rəqəmsallaşma, Süni İntellekt (Sİ), Əşyaların İnterneti (IoT), Böyük Verilənlər və avtomatlaşdırma kimi texnologiyalar iqtisadi fəaliyyətin bütün sahələrinə nüfuz edərək məhsuldarlığın artırılmasına, yeni biznes modellərinin formalaşmasına və idarəetmə proseslərinin səmərəliliyinin yüksəldilməsinə şərait yaradır. Bununla yanaşı, qloballaşma proseslərinin dərinləşməsi və qlobal rəqabətin kəskinləşməsi milli iqtisadiyyatların çevikliyinə və adaptasiya qabiliyyətinə olan tələbləri əhəmiyyətli dərəcədə artırır.

İqtisadiyyatın mahiyyətində baş verən bu çoxşaxəli dəyişikliklər onu idarə edən mexanizmlərin, xüsusilə strateji idarəetmə sistemlərinin yenilənməsini zəruri edir. Ənənəvi, bürokratik, mərkəzləşdirilmiş və uzunmüddətli sabit planlaşdırmaya əsaslanan idarəetmə modelləri sürətlə dəyişən, qeyri-müəyyənlik, mürəkkəblik və dəyişkənliklə xarakterizə olunan müasir şəraitdə öz effektivliyini itirməkdədir. Bu baxımdan həm dövlət, həm də özəl sektor subyektləri üçün çevik qərar qəbuletmə mexanizmləri, innovasiyaya açıq idarəetmə yanaşmaları və strateji uyğunlaşma qabiliyyəti mühüm əhəmiyyət kəsb edir. [3,9,13]

İqtisadi Transformasiyanın Nəzəri Əsasları və Strateji İdarəetmənin Yeni Paradiqmaları

İqtisadi transformasiya iqtisadi sistemin bir inkişaf mərhələsindən digərinə keçidi, yəni kənd təsərrüfatına əsaslanan iqtisadiyyatdan bilik iqtisadiyyatına keçidi ifadə edir. Bu termin iqtisadiyyatın kəmiyyət artımından fərqli olaraq, istehsal, bölgü və istehlak münasibətlərində baş verən keyfiyyət dəyişikliklərini əks etdirir. Justin Yifu Lin və Célestin Monga (2017) bu prosesi inkişaf etməkdə olan ölkələr üçün “inkişafın yeni mühərriki” adlandırır və vurğulayırlar ki, transformasiya yalnız bazar qüvvələrinin təsiri ilə deyil, həm də hökumətin sənaye siyasəti və institusional islahatlar vasitəsilə strateji müdaxiləsi ilə sürətləndirilməlidir. Bu yanaşma dövlətin sadəcə tənzimləyici deyil, həm də aktiv qurucu (entrepreneurial state) rolunu üzərinə götürməsini tələb edir.

Transformasiyanın əsas nəzəri bazisi Cozef Şumpeterin “yaradıcı dağıntı” (creative destruction) konsepsiyasıdır; iqtisadi tərəqqi mövcud iqtisadi quruluşların innovasiya hesabına dağıdılması və yeniləri ilə əvəz olunması hesabına baş verir (Schumpeter, 1942). Bu proses strateji idarəetmə sistemlərindən davamlı öyrənmə və yüksək adaptasiya qabiliyyəti tələb edir. Statik strategiya əvəzinə, dövlət və korporativ idarəetmə çeviklik (strategic agility) konsepsiyasına əsaslanmalıdır. Yeni strateji idarəetmə paradiqmaları həmçinin məqsədlərin dəyişməsini tələb edir. Ənənəvi idarəetmənin fokusu məhsuldarlığın kəmiyyət artımı idisə, transformasiya dövründə əsas fokus bilik iqtisadiyyatının göstəricilərinə (innovasiya xərcləri, rəqəmsal savadlılıq, startap ekosisteminin inkişafı) yönəlməlidir. Porterin (1985) rəqabət nəzəriyyəsi rəqəmsal transformasiya şəraitində təkrar nəzərdən keçirilməli, strateji üstünlüyün mənbəyi kimi fiziki aktivlər deyil, məlumatlar və bilik axını əsas götürülməlidir.

Aşağıdakı müqayisəli cədvəldə iqtisadi transformasiyanın strateji idarəetmənin fəlsəfəsinə necə təsir etdiyi göstərilmişdir (cədvəl 1).

Cədvəl 1

Ənənəvi strateji idarəetmə ilə transformasiya yönümlü strateji idarəetmənin müqaysəsi

Xarakteristika	Ənənəvi strateji idarəetmə	Transformasiya yönümlü strateji idarəetmə
Əsas hədəf	Resursların bölüşdürülməsi və sabitliyə nail olmaq	Davamlı innovasiya və rəqabət qabiliyyətinin artırılması
Planlaşdırma tipi	Uzunmüddətli (5 illik), statik və yuxarıdan-aşağıya	Dinamik, qısadövrlü və çevik
Uğur kriteriyası	Məhsuldarlığın kəmiyyət artımı, büdcə icrası	Rəqəmsal xidmətlərin tətbiqi və institusional çeviklik
Qərar qəbulu	Təcrübə, intuisiya, hesabatlar	Bigi Data və Süni İntellekt analizi

Mənbə: Grant, 2021; Osborne & Brown, 2020 əsasında tərtib edilib [6,9,11,13]

Transformasiya və idarəetmənin texnoloji inqilabı: Böyük Məlumatlar və məlumat əsaslı strategiya

Rəqəmsal transformasiyanın strateji idarəetmə sistemlərinə ən fundamental təsiri qərar qəbulu prosesinin köklü şəkildə dəyişməsidir. Böyük Məlumatlar (Big Data), Süni İntellekt (Sİ) və real vaxt analitikası strategiyanın hazırlanmasında subyektiv mühakimələrin rolunu azaldaraq, obyektiv məlumatlara əsaslanan məlumatəsaslı idarəetməni (Data-Driven Management) ön plana çıxarır (Davenport, 2014). Bu inqilab idarəetmə sistemində dinamik planlaşdırmanı tələb edir; ənənəvi illik planlaşdırma davamlı (continuous) planlaşdırmaya keçir. Strategiyanın icrası və monitorinqi real vaxt göstəriciləri əsasında dinamik şəkildə tənzimlənir, bu da idarəetmənin sürətini əhəmiyyətli dərəcədə artırır. Bu proses aşağıda (diaqram 1-də) təsvir edilmişdir:



Diaqram 1. Strategiyanın icrası və monitorinqinin real vaxt göstəriciləri

Mənbə: Davenport, T. H. (2014). Big Data at Work: Dispelling the Myths, Uncovering the Opportunities. [3]

Süni intellekt və maşın öyrənməsi alqoritmləri iqtisadi transformativ proseslərin müxtəlif ssenarilərdə potensial nəticələrini simulyasiya edərək, strateji risklərin daha dəqiq qiymətləndirilməsinə imkan verir, bu da hökumətlərə yalnız reaktiv deyil, həm də proaktiv şəkildə qərarlar qəbul etməyə kömək edir. Eyni zamanda, rəqəmsallaşma bürokratik prosesləri avtomatlaşdırır və məmurların işini strateji və analitik vəzifələrə yönəltməyə imkan verir. Məlumatların açıqlığı və rəqəmsal xidmətlərin tətbiqi idarəetmə sistemlərinin şəffaflığını və məsuliyyətini artırır (Tõnurist & Hanson, 2020). İqtisadi transformasiya strateji idarəetmə sistemlərini bu yeni texnoloji infrastrukturun tətbiqi üçün ciddi institusional islahatlara məcbur edir. Bu islahatlar rəqəmsal idarəetmənin normativ-hüquqi bazasını yaratmalı və rəqəmsal bacarıqlara malik insan kapitalının inkişafına yönəlməlidir, həmçinin idarəetmənin mərkəzi hissəsinə rəqəmsal transformasiya vahidinin yerləşdirilməsini tələb edir (PwC Baltics, 2022). Bundan əlavə, transformasiya zamanı iqtisadiyyatın yeni struktura keçməsi sektorlararası institusional koordinasiya problemini kəskinləşdirir, bu da idarəetmə sisteminin siloslaşmış quruluşlardan inteqrasiya olunmuş platformalara keçidini zəruri edir. Zheng və Zhang (2021) tərəfindən aparılan tədqiqatlar rəqəmsal iqtisadiyyatın inkişafının sənaye strukturunun təkmilləşdirilməsinə müsbət və statistik cəhətdən əhəmiyyətli təsirini təsdiqləyir. [3,12,14,16]

Beynəlxalq təcrübələrin tədqiqi: rəqəmsal və innovativ strateji idarəetmə modelləri

İqtisadi transformasiyanın strateji idarəetmə sistemlərinə təsirinin idarə olunmasında bir sıra ölkələr qabaqcıl modellər təqdim edirlər. Estoniya Modeli dövlət idarəetmə sisteminə rəqəmsal texnologiyaların tətbiqi ilə transformasiyanı sürətləndirmənin ən uğurlu nümunələrindən biridir. Onların strategiyasının əsasında dövlət xidmətlərinin 99%-nin rəqəmsallaşdırılması və e-Residency (Rəqəmsal Vətəndaşlıq) proqramı dayanır. Bu proqram Estoniyanın strateji hədəfini qlobal miqyasda sahibkarlıq ekosisteminin dəstəklənməsinə yönəltdiyini göstərir (e-Estonia, 2024).

Strateji idarəetmə səviyyəsində, Estoniya İnnovasiya Laboratoriyaları (məsələn, Accelerate Estonia) kimi mexanizmlər tətbiq edir. Bu laboratoriyalar bürokratik maneələri aşaraq, riskli, lakin potensialı yüksək olan innovativ idarəetmə həllərini test etmək üçün çevik, “sandbox” (təhlükəsiz sınaq mühiti) rolunu oynayır. Estoniya təcrübəsi göstərir ki, iqtisadi transformasiyaya uğurla cavab vermək üçün strateji idarəetmə sistemi mərkəzsizləşdirilməli və fasiləsiz öyrənməyə əsaslanmalıdır (PwC Baltics, 2022).

Digər tərəfdən, İsrail Modeli iqtisadi transformasiyanı innovasiya ekosistemi quruculuğu ilə birləşdirən “Start-Up Nation” konsepsiyasına əsaslanır. İsrail İnnovasiya Təşkilatı (IIA) kimi strateji idarəetmə qurumları, bazarın maliyyələşdirməkdən çəkindiyi erkən mərhələli, riskli Ar-Ge (R&D) layihələrinə dövlət investisiyalarını yönəldir (IIA, 2023). İsrailin ÜDM-də Ar-Ge xərcləri dünya üzrə ən yüksək göstəricilərdən biridir və 2023-cü il məlumatına görə 5%-ə yaxındır (World Bank, 2023). Feldman və Breznitz (2019) qeyd edirlər ki, İsrailin uğuru dövlətin sadəcə tənzimləyici deyil, həm də strateji sahələrdə sahibkarlıq riskini öz üzərinə götürən bir qurum olması ilə bağlıdır.

İsrailin innovasiya ekosisteminin idarəetmə modelini aşağıdakı diaqram şəklində təsəvvür etmək olar (Mənbə: IIA, 2023; Avnimelech & Teubal, 2020 əsasında): Avnimelech & Teubal (2020) vurğulayırlar ki, İsrailin strateji idarəetmə sistemi bazar qüsurlarını korreksiya etməli və innovasiyaların miqyaslanmasına (scale-up) dəstək verməlidir. Bu təcrübə, iqtisadi transformasiyanı idarə etmək üçün dövlət tərəfindən uzunmüddətli, proaktiv və texnologiyayönümlü strategiyanın zəruriliyini göstərir. [1,5,7,15]

Strateji idarəetmə sistemlərinin adaptasiya mexanizmləri və tövsiyələr

İqtisadi transformasiya prosesinin uğurla idarə edilməsi üçün strateji idarəetmə sistemlərinin institusional, kadr və metodoloji səviyyədə sürətli adaptasiyası zəruridir. Strategiya əsas diqqəti resursların xərclənməsindən nəticələrə və iqtisadi təsirə (outcome and impact) yönəltməlidir. Bu məqsədlə, köhnə kəmiyyətə əsaslanan Kəmiyyət Performans Göstəriciləri (KPI-lər) bilik iqtisadiyyatının keyfiyyətini, innovasiya xərclərini və rəqəmsal xidmətlərin istifadəsini ölçən keyfiyyət göstəriciləri ilə əvəz edilməlidir (Osborne & Brown, 2020). Eyni zamanda, idarəetmənin səmərəliliyi burada çalışanların rəqəmsal savadlılığı və analitik bacarıqlarından asılıdır; sistem məmurların sistemli təfəkkürünü və rəqəmsal alətlərdən istifadə qabiliyyətini inkişaf etdirmək üçün davamlı təhsil mexanizmlərini tələb edir ki, bu da dəyişikliyə müqaviməti aşan strateji liderlərin formalaşmasına imkan verir (Chen et al., 2023). Sektorlararası koordinasiyanın olmaması əsas problemlərdən biri olduğundan, idarəetmə sistemi siloslaşmış quruluşlardan inteqrasiya olunmuş strateji koordinasiya platformalarına keçməlidir və Open Government (Açıq Hökumət) prinsipləri vasitəsilə özəl sektorun və vətəndaş cəmiyyətinin qərar qəbuluna cəlb edilməsi strategiyaların səmərəliliyini artırır (Lemos & Scur, 2022). Nəticə etibarı ilə, iqtisadi transformasiya strateji idarəetmə sistemlərini çevik, məlumatəsaslı və innovasiyayönümlü bir mexanizmə çevrilməyə məcbur edir. [1,2,5,8]

Nəticə

Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, müasir iqtisadi transformasiya prosesi strateji idarəetmə sistemləri üçün artıq sadə bir düzəliş deyil, əksinə, köklü bir institusional və metodoloji inqilab zərurətidir. Bilik iqtisadiyyatına keçid, rəqəmsallaşma və yüksək qeyri-müəyyənlik (VUCA) şəraiti ənənəvi, statik və bürokratik idarəetmə modellərinin səmərəliliyini sıfıra endirir və bu proseslərin uğurla idarə edilməsi üçün dövlət idarəetməsi dörd fundamental dəyişikliyi qəbul etməlidir.

Birincisi, strateji planlaşdırma uzunmüddətli, sabit planlardan imtina edərək, real vaxt məlumatlarına əsaslanan, dinamik və davamlı yenilənən prosesə çevrilməlidir.

İkincisi, Süni İntellekt və Böyük Məlumatlar analitikası strategiyanın formalaşdırılmasının əsası olmalı, bu da qərar qəbulunda subyektivliyi azaldıb obyektivliyi və proaktivliyi artırmalıdır.

Üçüncüsü, İsrail və Estoniya təcrübələrində olduğu kimi, dövlət innovasiya riskini öz üzərinə götürən aktiv qurucuya çevrilməli və bazar qüsurlarını korreksiya etməlidir.

Dördüncüsü, idarəetmənin hədəfi resursların xərclənməsindən, bilik iqtisadiyyatının keyfiyyətini ölçən nəticələrə və iqtisadi təsirə fokuslanmalıdır.

Bütün bunlara əsaslanaraq, dövlətlərə dinamik strategiya dövrü tətbiq etmək, Böyük Məlumatların analitikası üçün xüsusi Rəqəmsal Transformasiya Vahidləri yaratmaq, bazar qüsurlarını aradan qaldırmaq üçün Strateji İnvestisiya Fondları vasitəsilə riskli Ar-Ge layihələrini maliyyələşdirmək və idarəetmə yeniliklərini sınaqdan keçirmək üçün “sandbox” və İnnovasiya Laboratoriyaları tətbiq etmək tövsiyə olunur.

Yekun olaraq, iqtisadi transformasiya strateji idarəetmə sistemini passiv tənzimləyicidən milli rəqabət qabiliyyətini gücləndirən çevik, məlumatəsaslı alətə transformasiya etməyə məcbur edir.

ƏDƏBİYYAT

1. Avnimelech, G., & Teubal, M. (2020). From Start-Up Nation to Scale-Up Nation: Innovation Policy and Management Challenges.
2. Chen, Y., Li, S., Wang, B., & Zhang, J. (2023). Digital Leadership and Organizational Agility: The Mediating Role of Digital Capabilities.
3. Davenport, T. H. (2014). Big Data at Work: Dispelling the Myths, Uncovering the Opportunities.
4. e-Estonia Briefing Centre (2024). e-Residency Annual Report 2024: Global Entrepreneurship through Digital Identity.
5. Feldman, M., & Breznitz, D. (2019). The State as Entrepreneur: Israel’s Technology Policy in Comparative Perspective.
6. Grant, R. M. (2021). Contemporary Strategy Analysis.
7. Israel Innovation Authority (IIA) (2023). Annual Innovation Report 2023: R&D and Dual-Use Technologies.
8. Lemos, R., & Scur, D. (2022). Management Practices in China and India: Evidence from WMS.
9. Lin, J. Y., & Monga, C. (2017). Beating the Odds: Jump-Starting Developing Countries.
10. Osborne, S. P., & Brown, L. (2020). Managing Change and Innovation in Public Service Organizations.
11. Porter, M. E. (1985). Competitive Advantage: Creating and Sustaining Superior Performance.
12. PwC Baltics (2022). The Future of Digital Government: Lessons from Estonia.
13. Schumpeter, J. A. (1942). Capitalism, Socialism and Democracy.
14. Tõnurist, P., & Hanson, A. (2020). Innovation Labs in the Public Sector: The Case of Estonia.
15. World Bank (2023). R&D Expenditure (% of GDP) – Israel.
16. Zheng, Y., & Zhang, Y. (2021). The Impact of Digital Economy on Industrial Structure Upgrading: An Empirical Analysis Based on China's Provincial Panel Data.

Джавидан Джавид кызы Мамедзаде
Азербайджанский Государственный Университет Нефти и Промышленности, магистрант
e-mail: cavidan.mammedzade@mail.ru

Казанфар Салман оглы Сулейманов
Азербайджанский Государственный Университет Нефти и Промышленности, заведующий кафедрой “Менеджмент”, доктор экономических наук, профессор
e-mail: suleymanov.q.s@gmail.com

Исследование влияния экономической трансформации на системы стратегического управления

Резюме

Основная цель исследования заключается в анализе процессов экономической трансформации, ориентированных на переход к постиндустриальной экономике, основанной на

знаниях и управляемой цифровизацией, а также в разработке управленческих механизмов в условиях конкурентоспособного экономического развития. Особое внимание уделяется обеспечению эффективности организации управления, перспективам эффективного формирования и управления финансовым обеспечением и анализу взаимосвязи между указанными элементами.

Методология исследования - В исследовательской работе использованы различные подходы, общенаучные методы логического анализа и другие методы исследования. Анализ, основанный на теории "созидательного разрушения" Й. Шумпетера и теории предпринимательской роли государства Лина и Монганы, показывает, что система управления должна трансформироваться в сторону стратегической гибкости (strategic agility) и принятия решений на основе данных.

Практическая значимость исследования заключается в обосновании роли финансовых ресурсов в условиях экономической трансформации, выявлении их значения в развитии отраслей промышленности на основе сравнительного анализа, а также в определении перспектив эффективного использования и обеспечения финансовых ресурсов с учётом их взаимного влияния. В работе оценивается достаточность существующих механизмов финансового обеспечения, эффективность управления финансовыми ресурсами и возможности повышения уровня их внедрения на предприятиях.

Результаты исследования - На основе изучения практики применения параметрической модели финансовых ресурсов в управлении промышленными отраслями исследованы особенности организации отраслей промышленности и механизмы использования финансовых ресурсов с учётом международного опыта. В результате обосновано, что стратегическое управление должно трансформироваться из пассивного регулятора в гибкий, основанный на данных и ориентированный на инновации инструмент национальной конкурентоспособности.

Оригинальность и научная новизна исследования - Научная новизна исследования заключается в разработке механизма эффективного использования финансовых ресурсов в промышленных отраслях страны, а также в формировании экономического механизма создания новых источников финансирования промышленности. К основным рекомендациям относятся создание Стратегических инвестиционных фондов, обеспечение технологического управления посредством подразделений цифровой трансформации, а также внедрение механизмов "регуляторных песочниц" (sandbox).

Ключевые слова: экономическая трансформация, стратегическое управление, стратегическая гибкость, цифровизация, инновационная политика, управление на основе данных, исследования и разработки (R&D), израильская модель, эстонская модель.

Cavidan Cavid Mammadzada
Azerbaijan State University of Oil and Industry,
Master's Student
e-mail: cavidan.mammedzade@mail.ru

Gazanfar Salman Suleymanov
Azerbaijan State University of Oil and Industry,
Head of the Department of Management, PhD, Professor
e-mail: suleymanov.g.s@gmail.com

Research on the Impact of Economic Transformation on Strategic Management Systems

Summary

The main objective of the research is to analyze the processes of economic transformation, oriented towards the post-industrial economy based on knowledge and managed by digitalization,

as well as the development of management mechanisms in the context of competitive economic development. The study focuses on ensuring the efficiency of management organization, the perspectives of effectively forming and managing financial resources, and analyzing the interrelationship between these elements.

Research Methodology - The research utilizes various approaches, general research methods, and other techniques. The analysis, based on Schumpeter's theory of “creative destruction” and Lin & Monga's theory of the state's entrepreneurial role, demonstrates that the management system must transition towards strategic agility and data-driven decision-making.

Practical Significance of the Research - The practical significance of the study lies in justifying the role of financial resources in the context of economic transformation, identifying their importance in the development of industrial sectors through comparative analysis, and determining the perspectives of effective utilization and provision of financial resources, taking into account their interconnections. The work evaluates the adequacy of existing financial provision mechanisms, the efficiency of managing financial resources, and opportunities for improving their implementation in enterprises.

Research Results - Based on the practice of applying a parametric model of financial resources in managing industrial sectors, the study investigates the organizational characteristics of these sectors and the organization of financial resource utilization, drawing on international experience. As a result, it is concluded that strategic management should transform from a passive regulator to an agile, data-driven, and innovation-oriented tool for national competitiveness.

Originality and Scientific Novelty - The scientific novelty of the research lies in the development of a mechanism for the efficient use of financial resources in the industrial sectors of the country, as well as the formation of an economic mechanism for the creation of new sources of industrial financing. The main recommendations include the establishment of Strategic Investment Funds, ensuring technological management through Digital Transformation Units, and the application of “sandbox” mechanisms.

Key words: economic transformation, strategic management, strategic agility, digitalization, ınnovation policy, data-driven management, research and development (R&D), Israel Model, Estonia Model.